DÜNYA

# Ermənistan Türkiyə ilə dəmir yolu əlaqəsini bərpa edəcək

indicə




Ermənistan-Türkiyə sərhədi

Ermənistan hökuməti dəmir yolu şəbəkəsinin Türkiyə ilə sərhədə doğru hissəsinin yenidən qurulması üçün ilk addımı atıb. Bunu ölkənin infrastruktur naziri **Davit Xudatyan** avqustun 17-də deyib.

Xudatian bildirib ki, hökumət Gümrüdən sərhədə qədər uzanan 21 kilometrlik hissənin layihələndirilməsi üçün beynəlxalq tender elan edib. Bu yol 1990-cı illərin əvvəllərindən bəri istifadəsiz qalıb və yararsız hala düşüb.

Ölkənin dəmiryolu şəbəkəsini Rusiyanın dövlətə məxsus Rusiya Dəmir Yolları (RJD) şirkəti Yerevanla 2008-ci ildə imzalanmış 30 illik müqavilə çərçivəsində idarə edir. Baş nazir **Nikol Paşinyan** ötən ilin sonlarında dəfələrlə RJD-yə bu və Azərbaycana aparan

hissəni təmir etməyə çağırıb. Paşinyan Ermənistanın Türkiyə və Azərbaycanla nəqliyyat əlaqələrinin bərpası üçün addımlar atdığını vurğulayıb.

Fevralın 12-də Rusiya baş nazirinin müavini **Aleksey Overçuk** buna hazır olduqlarını bildirdi. Paşinyan ertəsi gün deyib ki, Ermənistan dəmir yollarını Rusiyanın idarə etməsinə son qoymaq istəyir. Onun sözlərinə görə, bu, Türkiyə və Azərbaycanı yaxın gələcəkdə Ermənistan ərazisinin daha böyük bir hissəsini tranzit məqsədləri üçün istifadə etməkdən çəkindirir.

Moskva isə Paşinyanın idarəetmə hüquqlarını başqa bir xarici ölkəyə və ya şirkətə vermək tələblərini dəfələrlə rədd edib.

Keçən ayın sonlarında gərginlik daha da artıb. Paşinyan RJD-ni bu hüquqlardan məhrum etmək üçün qanuni tədbirlər görməklə, Rusiya operatorundan hər il 2 milyard dollara qədər pul alacağı ilə hədələyib. Rusiya rəsmiləri sərt xəbərdarlıqlar səsləndirəndən sonra baş nazir təhdidlərə ara verib.

AzadlıqRadiosunun erməni xidməti yazır ki, Xudatyanın açıqlaması Yerevanın Rusiyanı dəmiryolunun Gümrü-Axurik hissəsinin yenidən qurulmasından uzaq tutmaq istəməsinin göstəricisidir. Paşinyan mayda bu işi hökumətin maliyyələşdirəcəyini bildirmişdi.

Xudatyan onu da deyib ki, bu ilin sonlarında hökumət tikinti üçün ayrıca tender elan edəcək və bundan ötrü təxminən 15 milyon dollar tələb olunacaq.

Türkiyənin sərhəd şəhəri Akyakanın meri ötən ay "Azatutyun"a bildirib ki, Türkiyə tərəfdə yenidənqurma işləri artıq başlayıb və iki-üç aya başa çatacaq.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur